**Azərbaycanın xarici ölkələrdəki səfirliklərinə qarşı erməni icmaları tərəfindən törədilmiş vandalizm aktlarına dair Azərbaycan QHT-lərinin BƏYANATI**

Biz - Azərbaycanın QHT-ləri olaraq Azərbaycanın xarici ölkələrdəki (Fransa, Livan) diplomatik nümayəndəliklərinin binalarına qarşı bu ölkələrdəki erməni diasporunun radikalları tərəfindən törədilən hücumları və vandalizm aktlarını kəskin şəkildə pisləyirik. Özündə terrorizm elementlərini ehtiva etməklə bu hücumlar diplomatlara, onların mülklərinə xəsarət yetirmək məqsədini güdür, beləliklə də beynəlxalq cinayət məsuliyyəti doğuran əməllər kimi səciyyələndirilir. Qeyd etmək istəyirik ki, diplomatik nümayəndəliklərin statusunu və funksiyalarını müəyyən edən əsas beynəlxalq hüquqi sənəd - 1961-ci il Vyana Konvensiyasına uyğun olaraq, diplomatik nümayəndəliyi hər cür hücumlardan və zərər vurulmasından qorumaq, nümayəndəliyin sakitliyinin pozulmasının və ya nüfuzuna xələl gətirilməsinin qarşısını almaq üçün lazımi tədbirlər görmək yerləşmə dövlətinin xüsusi vəzifəsidir. Təəssüf hissi ilə bildiririk ki, Azərbaycan səfirliklərinə qarşı törədilən hücumlara verilən reaksiya qaneedici deyil. Hadisələrin üzərindən bir neçə gün keçməsinə rəğmən təxribatların qarşısının alınmasına cavabdeh olan qurumlar yetərli açıqlamalar vermirlər, hadisələrin törədicilərini cəzalandrmırlar.

Bizlər - Azərbaycan QHT-ləri olaraq erməni qruplarının cinayətkar hərəkətlərini qətiyyətlə pisləməklə yanaşı, müvafiq ölkələrdə bu cür təxribatların qarşısının alınmasına cavabdeh olan qurumların öz vəzifələrinə məsuliyyətlə yanaşmasını gözləyirik. Qanunun aliliyi prinsipini rəhbər tutaraq radikal erməni qüvvələrinin törətdiyi vandalizm aktlarının aidiyyəti dövlətlərin hüquq-mühafizə orqanları tərəfindən araşdırılmasını və bu cinayətləri törədənlərin hərəkətlərinə hüquqi qiymət verilməsini tələb edirik.

Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələri olaraq belə hesab edirik ki, Azərbaycan səfirliklərinə hücumların məsuliyyətini bu ölkələr bir dövlət kimi qəbul etməli, Azərbaycan xalqının narahatlığını başa düşməli, baş vermiş hadisəni ciddi araşdırmalı, cavabdehlərin tapılıb cəzalandırılmasını təşkil etməli, nəticələr barədə Azərbaycan hökumətinə və xalqına məlumat verməlidirlər.

Bizlər, həmçinin, erməni icmalarının Azərbaycan səfirliklərinə hücum təşkil etdikləri ölkələrdəki QHT və KİV nümayəndələrinə müraciət edərək, proseslərə həssas yanaşmağa, baş verənlərə laqeyd olmamağa çağırırıq. Cinayət cəzasız qalarsa, başqa yerlərdə başqa formalarda da təkrarlana bilər.

Bakı şəhəri, 20 sentyabr 2022-ci il